İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

*parlaq imzalar*

Kitabın sahibi: ____________________

Oxu tarixi: ____________________

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

# MƏNİ GÖZƏL XATIRLA

Şeirləri tərtib edən:

XƏZƏR SÜLEYMANLI

parlaq İMZALAR

| | |
|---|---|
| Koordinator: | Amin |
| Korrektor: | Turac ELDARQIZI |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| Cildin dizayneri: | Toğrul MƏSTƏLİYEV |

**MƏNİ GÖZƏL XATIRLA**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2023, 112 səh.

**© Xəzər Süleymanlı / 2023**
**© Parlaq İmzalar MMC / 2023**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 125

ISBN 9952547641-1
9789952547641

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
Çap tarixi: 09.01.2023
Sifariş: 04(01)/23

# Mündəricat

***Musa Yaqub***

Onda biləcəksən mənim sevgimi — 9

Buraxma məni — 12

Öyrətmə özünə, öyrətmə məni — 15

***İbrahim İlyaslı***

Necəsən, zalım? — 18

***Xəzər Süleymanlı***

Bilirsənmi qadın kimdir? — 20

Sənin üçün darıxmışam — 22

Sən hardan biləsən necəyəm indi — 24

***Arif Buzovnalı***

Az olmayıb səndən ötrü darıxdığım — 25

***Ülkər Hüseynli***

Sevgi — 28

***Ramiz Rövşən***

Son görüş — 30

İçindən yıxılır adam — 32

*Mikayıl Müşfiq*
Məni gözəl xatırla 34
Sevgilər 36
*Mirbədəl Həsənli*
Məni kim sevib ki, sən də sevəsən 37
*Aqşin Evrən*
Telefonda deyilməmiş sözlər 38
Unutmağın resepti 42
Ay balaca xanımım 44
*Bəxtiyar Vahabzadə*
Bir salama dəymədi 46
Ayrıldıq 48
Yaman darıxmışam səninçün, yaman 50
Unutmaq istərəm 52
*İbrahim Quliyev*
Ürəyimdə ölən qadına... 54
*Nüsrət Kəsəmənli*
Mən səni unuda bilmirəm axı 56
Mənim bu şəhərdə kimim var axı 58
*Əlibala Hacızadə*
Unudulmaq yaman dərddi 61

*Hüseyn Arif*

Analar 62

*Nəriman Həsənzadə*

Özgə əllərəmi tapşırdın məni? 64

*Asim Bəy Kazımsoy*

Məni möcüzəylə gözləyən qadın 66

*Rəsul Rza*

Mən istəyirəm... 68

Saçımda dolaşan əllərinmidir? 70

*Əliağa Vahid*

Baxmaz idim 72

Bilməm bu nazənin kimin istəkli yarıdır 74

Bəxtiyar aşiq odur ki, onu cananı sevir 76

*Amin*

Sən küləkdin 78

*Mədinə Əliyeva*

Təki sən xoşbəxt yaşa 80

Ayrılıq 82

Son görüşümüz 84

İmkansız sevgi 86

Bir gün sən gələrsən ömrümə mənim 88

Sənsiz 90

*İsa Körpülü*
Gəl sağollaşaq 92
Gözlərim səni axtarır 94
*Sailə Pənahqızı*
Xəyanət yaşamış qadın 96
*Elvir Axund*
Xəyanət 98
Xatirə 100
*Könül Əlibəyli*
Sizi unutmayacağıq 102
*Vaqif Bayatlı*
Səni niyə belə sevdim 105
*Əliağa Kürçaylı*
Yadına düşürəmmi? 106
*Fidan Əliyeva*
Yenə uşaq olsam 108
*Əcəmi Əsədulla*
Şəhidin anasına son sözləri... 110

## Onda biləcəksən mənim sevgimi

*Musa Yaqub*

İndi nazın böyük, ürəyin aram,
Eh, mən də səninçün belə qalmaram...
Bir də görərsən ki, bir ərk yerin yox,
Qalmısan neçə yad baxışın altda.
Qəfil görəcəksən çətirin də yox,
Əsirsən bir qərib yağışın altda.
Günəşdə üstünə kölgə salan yox,
Tənhasan, amma heç yada salan yox.
Sönüb səndən ötrü o isti ocaq.
Onda biləcəksən mənim sevgimi,
Biləcəksən,
O da çox gec olacaq.

Könlün darıxanda, lap darıxanda,
Kimlərsə hardansa qoşa baxanda,
Bir də görəcəksən,
Sən burda təksən,
Yanında boş qalıb bir sirdaş yeri,
Sızlayır könlünün həmin boş yeri.
O sözün, o səsin, o ərkin yoxdur,
Dərdin var, bu dərdə şərikin yoxdur.
Onda birdən-birə gözün dolacaq,
Onda biləcəksən mənim sevgimi,
Biləcəksən,
O da çox gec olacaq...
Məsələn, bir dəfə yeri gələndə,
Bir gizli vaxt tapıb güzgülənəndə
Bir də görəcəksən şümşad əllərin,
Çiynınə tökülmüş dalğın tellərin,
Bir gülər üzün var,
Amma bilən yox,
Bu xumar gözlərlə birgə gülən yox.

Yoxdur bu əllərin qədirbiləni,
Yoxdur bu tellərin qədirbiləni,
Çiynin boş, əlin boş, boş qalan qucaq...
Onda biləcəksən mənim sevgimi,
Biləcəksən,
O da çox gec olacaq...
Soraq almayanda eldən, mahaldan,
Yığa bilməyəndə gözünü yoldan,
Könlün bir qanadlı söz istəyəndə,
Ümid qanadıyla uçum deyəndə
Bir də görəcəksən qanadın yoxdur.
Çağrılır, deyilir, adı var, amma
Dilimdə şipşirin o adın yoxdur,
Bir nağıl, bir sevgi, həyatın yoxdur.
Gün keçib, vaxt ötüb, xatirəm uzaq...
Onda biləcəksən mənim sevgimi,
Biləcəksən,
O da çox gec olacaq...

## Buraxma məni

*Musa Yaqub*

Gözlərin gözümə baxdı yenidən,
Döndərək geriyə vaxtı yenidən;

Özünlə dustaq et,
Bir ev dustağı,
Buraxıb sən məni salma məhbəsə.
Könlümü titrədən vaxt qorxusudu;
Şəlalə nə qədər coşub kükrəsə,
Çaya qarışanda adicə sudu.
Buraxma məni...

Bu qədər işıqlı gözlərlə bir də
Heç kimə mən baxa
bilməyəcəyəm;

Onda gözlərim də adiləşəcək.
Bu qədər mehriban sözlərlə bir də
Bir könülə axa bilməyəcəyəm;
Onda sözlərim də adiləşəcək.
Buraxma məni...

Sevdalı ömrümün sarı siminə
Belə incə mizrab dəyməyib heç
vaxt.
Bəxtəvərliyimin, xoşbəxtliyimin
Ən uca, ən ali taxtıdır bu taxt.

Buraxma,
bu taxtdan endirmə məni,
Bu tacı başımdan götürmə hələ.
Ləfzindən yanıram,
söndürmə məni.
Dilinə başqa söz gətirmə hələ.

Qalxa bilmək üçün bu ucalığa,
Yetə bilmək üçün belə saflığa.
Min dağdan, dərədən soraq
almışam,
Dilbər guşələri gəzmişəm bütün.
Bəlkə də, duyğumu cilalamışam,
Elə bu vaxt üçün, bu məqam üçün;

Heyifdir bu məqam,
Heyifdir bu gün.
Buraxma məni…

Eh, yazığım gəldi an kimi ötən
Bircə göz qırpımlı şimşək ömrünə.
Eh, yazığım gəldi payızda bitən
Bir meh sığal görən çiçək ömrünə.

Meh ki o çiçəyi saxlaya bilmir,
Göy ki o şimşəyi saxlaya bilmir,
İnsan ki özünün ağası deyil,
Belə bir istəyi saxlaya bilmir,
Burax, qoy gedim.